# Peşəyönümü işində ailə və məktəbin qarşılıqlı əlaqəsi

**Günel Rzayeva**
*Bakı Qızlar Universiteti*
**E-mail:** rzayevagunel527@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. P.M. Həsənova,
p.ü.f.d., dos. Y.A. Allahverdiyev

**Açar sözlər:** peşə, müəllim, tərbiyə, valideyn, təhsil, məktəb, bilik, bacarıq
**Ключевые слова:** профессиональное образование, учитель, образование, родитель, образование, школа, знания, навыки
**Key words:** vocational, teacher, education, parent, education, school, knowledge, skill

Ulu öndərimiz Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" fikrinə əsaslanaraq hər an təhsilimizi inkişaf etdirməliyik ki, həm sabahkı cəmiyyətimizin inkişafını, həm də yaşayışımızın davamlığını təmin edə bilək. İctimai həyatımızda təhsilin əhəmiyyəti və rolu olduqca böyükdür. Övladına mükəmməl təhsil vermək, onu layiqli bir sənət, peşə sahibi etmək, şərqin, o cümlədən Azərbaycan xalqının ən gözəl adət-ənənələrindən biridir. Uşaq və gənclərin əməyə, peşə seçməyə hazırlanması problemi bütün dövrlərdə aktual olmuşdur. Digər xalqlarda olduğu kimi, Azərbaycan xalqınında pedaqoji fikir tarixində ozünəməxsus yer tutmuşdur.

Dahi Azərbaycan şairi olan Nizami Gəncəvinin dövründən tutmuş günümüzün ən böyük filosof, şair, yazıçı və pedaqoqları peşə haqqında, peşə, sənət adamları haqqında, hər hansı bir peşəyə yiyələnərkən onu qəlbən sevməyə aid bu gün də öz təravətini saxlayan hikmətli sözlər demiş, mənalı fikirlər söyləmişlər. N.Gəncəvi peşə və sənət seçməyin faydasını yüksək dəyərləndirmiş və insanı seçdiyi sənəti dərindən və hərtərəfli öyrənməyə çağırmışdı. Bunu onun ən məşhur misralarindan birində də görmək olar.

Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan {75, s. 100}

Hər bir şəxs peşə seçimində işinin səmərəliliyini təmin etmək üçün onun müəyyən prinsip və üsullarla aparmalı, həmçinin bu prinsip və üsulların düzgün müəyyənləşdirməlidir. İnsanın həyatında ailə ilk tərbiyəçi və tərbiyə ocağıdır. Hər bir uşaq ilk tərbiyəsini və təhsilini məhz ailədə alır. Peşələrlə tanışlığın əsası ailədə valideynlər tərəfindən qoyulur. Həyatı yenicə dərk etməyə başlayan uşaq öz ailə mühitində valideynlərinin peşələri, iş xüsusiyyətləri haqqında tez-tez məlumatlar eşidir və onların iş məzmunu ilə tanış olurlar. Müasir dövrdə valideynlərin öz övladlarının peşə seçməsinə münasibətində yeni meyillər və yeni istiqamətlər özünü göstərir. Bu hər şeydən əvvəl valideynlərin bu işə praqmatik baxımdan yanaşmaları ilə təzahür olunur. Belə ki, yeni iqtisadi və sosial şərait bəzi valideynlərin öz övladlarını daha tez qazanc gətirə bilən peşələrə istiqamətləndirməsinə güclü meyllər yaratmışdı. Bunlar da valideynlərin peşəyönümü işində öz övladlarının gələcək həyat yolun ilə daha ciddi maraqlanmasına gətirib çıxarır. Buna görə də peşəyönümü işində valideynlərlə daha yaxından və fəal iş aparılması hər bir pedaqoji kollektivin əsas işlərindən biri olmalıdır. Məktəblərdə peşəyönümü üzrə müxtəyif iş planları vardır. Bunlar əsasən iki istiqamətdə-təlim prosesində,

sinifdən və məktəbdənkənar tədbirlər prosesində aparılan peşəyönümü işlərini əhatə edən planlardan ibarətdir.

Təlim prosesində peşəyönümü işi planlaşdırarkən bütün fənn müəllimləri tədris etdikləri fənnin proqram və dərsliklərinin imkanlarını araşdırmalı və bu imkanları nəzərə almaqla peşəyönümü planları tərtib etməlidirlər. Sinifdən və məktəbdən kənar tərbiyəvi tədbirlər prosesində aparılan peşəyönümü işlərin planları müxtəlifdir. Buraya məktəbin ümumi iş planı, məktəb uşaq və gənclər təşkilatlarının iş planı, sinif rəhbərlərinin iş planı, məktəb peşəyönümünün iş planı və s. daxildir. Məktəbdə peşəyönümü üzrə iş planları müxtəlif olduğu kimi, müəyyən ümumilik də təşkil etməlidir. Belə ki, bu planlar həm məktəbin ayrı - ayrı ictimai təşkilatlarını əhatə etməli, həm də bunlar arasında sıx əlaqə gözləməlidirlər. Belə olduqda planın qarşısındakı məqsəd və vəzifələri yerinə yetirmək mümkündür.

Aparılan tədqiqat işlərinin nəticələri bunu göstərir ki, məktəblərdə də bu işə eyni münasibət bəslənilmir. Bəzi məktəb və müəllimlər bu sahədə valideynlərlə əlbir iş formalarından istifadə etməyə, onlarla əlbir fəaliyyət göstərməyə üstünlük verdikləri halda, bəzi məktəblərdə bu işin onlara sanki dəxli yoxmuş kimi yaxşılaşdırılması üçün heç bir əməli iş metodlarından istifadə etmirlər. Bu da məktəbin peşəyönümü işində valideynlərlə heç bir iş aparmamasına, nəticədə bu problemin elmi həllində müəyyən nöqsanların baş verməsinə səbəb olur.

Deyilənlərin yekunu kimi peşəyönümü işində məktəbin ailəyə kömək-təsir imkanlarını aşağıdakı kimi qeyd etmək olar:

1. Sinif rəhbərləri və fənn müəllimləri ilə müntəzəm əlaqə saxlayaraq şagirdlərin peşə maraq və meyillərinin öyrənilməsi, peşə bacarıq və qabiliyyətlərin inkişaf etdirilməsi sahəsində hansı istiqamətdə işlər apardığını müəyyən etməlidirlər.
2. Sinif rəhbərləri və fənn müəllimləri ayrı-ayrı istedadlı və qabiliyyətli şagirdləri müəyyənləşdirməli, onların gələcək həyat yolu haqqında valideynlərlə fərdi işlər aparmalıdırlar.
3. Sinif rəhbərləri və fənn müəllimləri müxtəlif vaxtlarda sorğular keçirməli, məsləhətlər verməli və uşaqların peşə seçməsinə kömək məqsədi ilə valideynlərin pedaqoji maariflənməsinə kömək etməlidirlər.
4. Peşəyönümü işinə elmi yanaşmaq və ona elmi istiqamət vermək üçün məktəbdə valideynlərə pedaqoji lektoriyaların təşkilinə nail olunmalıdır.

Ailədə valideynlərin ev işlərində iştirak edən uşaq, valideynlərinin işini, peşəsini müşahidə etmək, onun müəyyən elementlərini mənimsəməklə yanaşı, onların əməyinə hörmətlə yanaşır, əməyin, zəhmətin nə olduğunu anlayır. Ailədə uşaqların peşə seçməyə istiqamətləndirilməsində onların məişət və texniki əmək işlərinə cəlb edilmələri mühüm yer tutur. Uşaqlar məişət və texniki əməklə məşğul olduqca sadə əmək vərdişlərinə yiyələnir və bir sıra istehsal prosesləri ilə tanış olurlar. Bu da uşaqların gələcək həyat yollarının, peşə-ixtisas seçimlərinin reallaşmasında əsaslı rol oynayır.

Uşaqların peşə seçməsinə yaxından və əməli surətdə kömək göstərilməsində uşaqların məktəbdənkənar tərbiyə müəssisələrinə cəlb edilməsinin və bu müəssisələrdə əlbir fəaliyyət göstərmələrinin böyük əhəmiyyəti və rolu vardır. Uşaqların burada fəaliyyət göstərən dərnəklərə cəlb edilmələri və texniki yaradıcılıqla məşğul olmaları onlarda bir sıra texniki əmək vərdişlərinin yaranmasına, formalaşmasına və ixtiraçılıq həvəsinin oyanmasına çox müsbət təsir göstərir.

Valideynlər övladlarının maraq göstərdikləri peşəyə həvəs oyatmalıdırlar. Lakin bu o halda mümkündür ki, uşaqların bacarıq və qabiliyyəti onun maraq və meylinə müvafiq gəlmiş

olsun. Peşəyönümü işində başlıca məsələlərdən biri də bu sahədə ailədə aparılan işlərdə şüurluluq pirinsipinə əməl edilməsidir. Şagird seçəcəyi peşənin sosial dəyəri, onun tələbləri, bu tələblərə özünün psixoloji xüsusiyyətlərinin uyğunluq səviyyəsi və s. haqqında məlumat və təsəvvürə malik olmalıdır. Bunun üçün valideynlər öz övladlarına məsləhət gördükləri peşənin sosial dəyəri, əhəmiyyəti, cəmiyyət və onun özü üçün nə kimi faydalı olması, onun perspektivləri, bu peşə ilə yüksələ bilmə imkanları, əmək haqqı səviyyəsi və s. haqqında məsləhət verməlidirlər. Valideynlər övladlarının təlim və təhsilinə diqqətlə yanaşmalı, onların hansı fənnə daha çox maraq göstərdiklərini bilməli və fənn maraqları ilə peşə-ixtisas maraqlarının bir-biri ilə hansı səviyyədə yaxınlığını nəzərdən qaçırmamalıdırlar. Yuxarı sinifdə oxuyan uşaqların bu sahə ilə əlavə məşğul olmalarına, seçəcəkləri peşələrə müvafiq yeni biliklər və bacarıqlar almalarına şərait yaratmalıdırlar. Bu işdə onlar mütəmadi olaraq müəllimləri ilə əlaqə saxlamalı və onlardan faydalı məsləhətlər almağı unutmamalıdırlar.

Lakin bütün bunlara baxmayaraq aparılan bir çox tədqiqat işlərinin nəticələri göstərir ki, gənclər və onların valideynləri arasında peşəseçmə məsələlərinə münasibət heç də eyni səviyyədə deyildir. Bəziləri ona işə düzəlmə, bəziləri əmək haqqı, bəziləri də şəxsiyyətin sosiallaşması prizmasından yanaşırlar. Bu baxımdan üç münasibəti xüsusi qeyd etmək lazım gəlir:

1. İşsizliyin aradan qaldırılması, işlə təmin olunmanın asanlığı. Bu baxışların mahiyyəti ondan ibarətdir ki, peşəseçməyə iqtisadiyyatın müasir axarı istiqamətindən yanaşılır və belə peşə və ixtisasların seçilməsi planlaşdırılır ki, bu sahədə işə, fəaliyyətə imkan və ehtiyac daha geniş olsun. Peşəyə yiyələndikdən sonra işsizlik problemi yaranmasın.

2. Əmək haqqının daha çox olması, bu peşə ilə daha çox qazanc əldə etmənin mümkünlüyü. Bu istiqamət üzrə meylin valideynlər arasında daha güclü olması nəzərə çarpır. Valideynlər çox vaxt elə peşələrin seçilməsini arzu və təklif edirlər ki, bu sahədə yüksək əmək haqqı vardır və daha çox qazanc əldə etmək mümkündür.

3. Peşənin şəxsiyyətin sosiallaşması amili olması. Bu istiqamət üzrə yanaşmanın mahiyyətində peşəyə şəxsiyyətin özünün mahiyyətinin zənginləşməsi, onun sosial statusunun yüksəlməsi vasitəsi olması durur. Peşə seçməyə belə münasibətin tərəftarları elə peşələrin seçilməsini arzu edirlər ki, bu peşələr onların cəmiyyətdəki nüfuzunun əsas amillərindən birinə çevrilə bilsin. Qeyd edək ki, bu meyil valideyinlərdən çox şagirdlər arasında daha qabarıq özünü göstərir.

Övladlarının peşə seçməsinə valideynlərin münasibətlərinin belə müxtəlifliyi şagirdlərin bir sıra kütləvi peşələrə, o cümlədən, fiziki əmək tələb edən peşələrə istiqamətləndirilməsi işində özünü daha qabarıq şəkildə göstərir. Valideynlərin daha çox hissəsinə xas olan belə bir xüsusiyyət özünü göstərir ki onlar heç də övladlarının kütləvi fəhlə və kənd təsərrüfatı peşələri seçmələrinə müsbət münasibət bəsləmirlər. Valideynlərin əksəriyyəti övladlarının əqli əmək sahəsində fəaliyyət göstərməsinə daha çox meyl edir və onların orta məktəbi bitirdikdən sonra təhsillərini ali məktəblərdə davam etdirməsini arzu edirlər və ali məktəbləri də müəyyən kateqoriyalara bölərək daha çox nüfuzlu olan "gələcəyi olan" peşələrə üstünlük verirlər. Bu baxımdan aparılan anket sorğularında müxtəlif peşə sahəsində çalışan, təhsil səviyyəsi müxtəlif olan 384 nəfər valideyndən 82 faizinin övladlarının orta təhsil alan kimi ali məktəblərə daxil olmasını arzu etmələri fikirləri aydın təsdiq edir. Maraqlıdır ki, bu arzu etmənin arxasında çox vaxt şagirdlərin özlərinin arzusu, istəyi, bacarığı, qabiliyyəti deyil, yalnız onların valideynlərinin istəkləri və arzuları dayanır.

Belə valideynlər övladları üçün təmiz, asan və gəlirli peşələr axtarıb tapır, bu prosesdə maddi istehsal sahələri ilə bağlı olan peşələrdən yan keçirlər. Bu isə gənclərin maddi istehsal

sahəsində, eyni zamanda respublikamız üçün daha vacib olan peşələrin seçilməsi probleminin həllini çətinləşdirir və məktəbin bu sahədə apardığı işin səviyyəsini xeyli aşağı salır.

Ailədə uşaqların peşə seçməyə hazırlanmasında diqqəti çəkən başqa başlıca məsələlərdən biri də uşaqların əqli və fiziki əməyi – nəzəriyyə ilə təcrübənin bir-biri ilə əlaqələndirilməsinə ciddi fikir verilməsidir. Belə olduqda bir tərəfdən təfəkkürlə praktik fəaliyyətin əlaqəsi yaranır, digər tərəfdən də onların yaradıcılıq qabiliyyəti, düşüncəsi, bilik və bacarığı inkişaf edib formalaşır. Uşaqların ailədə peşəyönümünə rəhbərliyi düzgün təşkili eyni zamanda əməyə və peşəyə məhəbbət, məsuliyyət və borc hissi, seçilən peşəyə bağlılıq kimi yüksək əxlaqi sifətlər tərbiyə edir. Bunlarla bərabər, həm də onlara əməli biliklər verir və bir sıra lazımi bacarıq və vərdişlər aşılayır.

**Məqalənin aktuallığı.** Peşə seçimində işinin səmərəliliyini təmin etmək üçün müəyyən prinsip və üsullara əməl edilməli, ən başlıcası, həmin prinsip və üsullar əvvəlcədən düzgün müəyyənləşdirməlidir. Məqalə də bu mövzuya həsr olunduğundan onu aktual hesab etmək olar

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə təlim prosesində peşəyönümü işinin planlaşdırılması ilə bağlı aparılan tədqiqatların nəticələrinə istinad olunur, peşəyönümü işində məktəbin ailəyə kömək-təsir imkanlarının istiqamətləri göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. M.İ.İlyasov. Məktəbdə peşəyönümü işinin sistemi. Dərs vəsaiti. Bakı: ADPU, 1997.
2. M.İ.İlyasov. Şagirdlərin peşə seçməyə hazırlanmasının pedaqoji əsasları. Monoqrafiya. Bakı: Elm, 2005.
3. M.İ.İlyasov. Peşəyönümün əsasları. Dərs vəsaiti. Bakı: Mütərcim, 2011.

**Г. Рзаева**

## Взаимодействие семьи и школы во время профориентации

## Резюме

В статье рассматриваются взаимоотношения семьи и школы при выборе профессии. Принципы и методы используются для обеспечения эффективности этой работы. В то же время учебный процесс фокусируется на результатах исследований, связанных с планированием работы, и дает рекомендации о том, как школа может помочь семье на рабочем месте.

**G. Rzayeva**

## Interaction between the family and the school in the workplace

## Summary

The article deals with the relationship between family and school in the choice of

profession. Principles and methods are used to ensure the effectiveness of this work. At the same time, the learning process focuses on the results of researches on career planning, and provides guidance on how the school affects the family in the workplace.

**Redaksiyaya daxil olub:** 22.04.2019